**AUDİT 2024, 3 (45), səh. 92-102.**
**AUDIT 2024, 3 (45), pp. 92-102.**
**АУДИТ 2024, 3 (45), стр. 92-102.**

**DOI: 10.59610/bbu3.2024.3.9**

*Həşimova Günay Qnyaz qızı,*
*doktorant,*
*Bakı Biznes Universiteti,*
*Email: gunay.hesimova07@gmail.com;*
*Musayeva Aydan Elnur qızı,*
*Azərbaycan Diplomatik Akademiyası (ADA University),*
*Email:aydanmusayeva2022@gmail.com*
*© Həşimova G.Q., Musayeva A.E., 2024*

**UOT: 658**
**JEL: L26;O25;R11;M13**

# KLASTERLƏŞMƏNİN KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINA TƏSİRİ

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi** - kiçik və orta sahibkarlıqda klasterləşmənin mövcud vəziyyətinin təhlil edilməsi və əldə olunan məlumatlar əsasında təkliflər verilməsindən ibarətdir.

**Tədqiqatın metodologiyası** - tədqiqatın aparılması zamanı SWOT təhlil, ikincili məlumat təhlili, analiz, sintez və s. metodlardan geniş istifadə olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - KOS-ların klasterləşməsinə dair bir sıra strategiya, plan və proqnozların hazırlanmasında bu tədqiqatın nəticələrindən istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** - KOS-larda ixrac, investisiya cəlbediciliyi, istehsal, tədqiqat, texnoloji və digər istiqamətlərdə inkişafının artırılmasında klasterləşmənin rolu və bu sahəyə dövlət dəstəyi qeyd olunmuşdur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - KOS-ların klasterləşməsinin mövcud vəziyyəti təhlil edilmiş və müvafiq təkliflər verilmişdir.

**Açar sözlər:** KOS-lar, sahibkarlıq, rəqabət, klasterləşmə, dövlət dəstəyi, klaster şirkəti.

## G İ R İ Ş

İqtisadi qloballaşmanın inkişafı ilə dünyada ölkələr və regionlar arasında əlaqələr intensivləşmiş və qarşılıqlı iqtisadi mübadilələrin güclənməsi sənaye klasterlərinin formalaşmasına təkan vermişdir. Tez-tez informasiya mübadiləsinin aparıldığı və kapitalın cəmləşdiyi regionların iqtisadi təkamülü sürətli inkişafın şahidi olmuşdur. Müvafiq tədqiqatlar göstərir ki, sənaye klasteri regional iqtisadiyyatın hərtərəfli inkişafına təkan verən mühüm amildir və yüksək texnologiyalı KOS-ların davranışına və fəaliyyətinə əhəmiyyətli təsir göstərir.

Klasterin məqsədi yeni texnologiyalara asan əlçatanlılıq, risklərin bölüşdürülməsi, xarici

AUDİT 2024, 3 (45), səh. 92-102.
AUDIT 2024, 3 (45), pp. 92-102.
АУДИТ 2024, 3 (45), стр. 92-102.

bazarlara birgə çıxış, elmi və əsas biliklərin kollektiv istifadəsini təmin etməklə üzvlər arasında qarşılıqlı əlaqəni yaxşılaşdırmaqdan ibarətdir.

Müasir dövrdə iqtisadiyyatda klasterləşmə prosesi iqtisadi sistemin mürəkkəb yüksəlişi üçün mühüm bir alət rolunu oynayır, rəqabətqabiliyyətli modelin seçilməsini təmin edir və regionun mövcud potensialını maksimum dərəcədə artırmaq şansı verir.

Klasterləşmə prosesi rəqabət aparan sahələrin dinamik böyüməsini təşviq edir. Son illərdə bütün dünyada klasterləşmə yanaşması iqtisadi ədəbiyyatlarda rəqabət qabiliyyətinin artırılması üçün mühüm alət kimi qəbul olunmağa başlamış və bu gün KOS-larda klasterləşmə prosesi xeyli sürətlənmişdir. Çünki KOS-ların təchizat, istehsal, marketinq, texnologiya və beynəlxalq rəqabət baxımından yaşadığı problemlər, xüsusilə də maliyyə və idarəetmə problemləri qloballaşan dünyada daha da dağıdıcı xarakter almış və KOS-ları fərqli siyasət təcrübələrinə sürüklənmişdir (4, s.226-227).

KOS-ların Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyəti və yaşadıqları problemlər nəzərə alındıqda, onların bu problemlərə təkbaşına həll yolları təqdim etmələrinin çətin olduğu və öz aralarında təşkilatlanmasının qaçınılmaz olduğu görülür. Bu səbəbdən rəqabət üstünlüyü təmin etməkdə bir çox inkişaf etmiş ölkədə nümunələri olan və regional-milli inkişafa əhəmiyyətli töhfələr verən klasterləşmənin Azərbaycanda KOS-lar üçün əhəmiyyətli bir alternativ olduğu düşünülür.

**Klasterləşmə anlayışı**

Klaster - coğrafi baxımdan bir-birinə uyğunlaşdırılmış və bir-birinə yaxın olan kiçik, orta və iri müəssisələrin (dövlət, özəl, qeyri-hökumət), elm və təhsil təşkilatlarının, maliyyə institutlarının, standartlaşdırma orqanlarının və logistika sistemlərinin istehsalın səmərəliliyini və fasiləsizliyini təmin etmək, innovativ inkişafı stimullaşdırmaq, rəqabətqabiliyyətli məhsullar istehsal etmək (xidmətlər göstərmək) məqsədi ilə əməkdaşlıq etmək, ünsiyyət və qarşılıqlı dialoq imkanlarına malik olmaq şəbəkəsidir.

1920-ci illərdən başlayaraq sovet iqtisadçıları klasterləşmə modelinə alternativlər təklif edirdilər. Həmin dövrdə ərazi istehsal firmaları mövcud klasterləşməyə alternativ olaraq kompleksin qurulmasını təklif edirdi. XX əsrin sonlarında sənaye klasterləri iqtisadi inkişafa təkan verə biləcək dəyişənlərdən biri kimi meydana çıxdı. O zaman bir sıra iqtisadçılar hesab edirdilər ki, klaster konsentrasiyanı və ya qruplaşmanı təmsil edir. İqtisadçılar adətən klasteri müəyyən qrupları təşkil edən homogen və müqayisə edilə bilən maddələrin toplusu kimi müəyyən edirlər.

Alfred Marşallın 1890-cı ildə yazdığı "İqtisadiyyat elminin prinsipləri" kitabı iqtisad elmində "klaster" termininin yaranmasının əsası hesab olunur. Həmin tədqiqata "Ərazilərdə İxtisaslaşdırılmış Sahələrin Konsolidasiyası" bölməsi daxil edilmişdir. 1990-cı illərdə Harvard Biznes Məktəbinin professoru Maykl Porter A. Marşallın işi əsasında iqtisadi klaster anlayışını inkişaf etdirdi. M.Porter sənaye və regional klasterlərin mahiyyətini tədqiq etmiş və onların mahiyyətini əks etdirən nəzəriyyələr irəli sürmüşdür. Onun fikrincə, klaster məqsədli məhsul

AUDİT 2024, 3 (45), səh. 92-102.
AUDIT 2024, 3 (45), pp. 92-102.
АУДИТ 2024, 3 (45), стр. 92-102.

istehsalı, müəyyən coğrafi regionda yerləşən korporasiyaların, müəssisələrin və əlaqəli qurumların qarşılıqlı və əməkdaşlıq fəaliyyətini nəzərdə tutur. 1923-1938-ci illər arasında nəşr olunan "Yeni yol", "Kommunist" və "Бакинский рабочий" dövri nəşrləri qruplaşma anlayışı və iqtisadi fəlsəfə üçün tarixi materiallar vermişdir (4, s.228-229).

Məqalələr üzərində tədqiqat aparan iqtisad elmləri doktoru S.S.Səməndərov 2014-cü ildə AMEA jurnalında (İqtisadiyyat seriyası) dərc olunmuş məqaləsində İ.G. Aleksandrov, N.I. Kolosovski və N.N. Baranovskinin ərazi istehsal məsələlərinin kompleksləri konsepsiyasının nəzəri əsaslarını işləyib hazırladı. Eyni zamanda, Məhəmməd Həsən Baharlı sənayeləşmə prosesi boyunca ərazi əsaslı istehsal sistemini təklif etdi.

Klaster anlayışı iki məqsədə xidmət edə bilər: **təhlil və təcrübə**.

**Təhlil** üçün klasterdən istifadə edərkən bir sahə və ya müəssisə tədqiqat obyekti kimi meydana çıxır. Açıqlanmış ehtiyatlar adətən proqnozlaşdırmada istifadə olunur.

**Klaster strategiyanın** (təcrübi fəaliyyət üçün klaster) hər bir üzvü üçün innovasiya, rəqabətqabiliyyətlilik, gəlirlilik, məşğulluq və məhsuldarlığın yüksəldilməsi metriklərini özündə əks etdirən regional inkişaf planını yaratmaq üçün eksperimental fəaliyyət üçün seçilir.

Aşağıda bəzən "klaster siyasəti" kimi tanınan klasterə dəstək fəaliyyətlərinin nümunələri verilmişdir:

– İnnovasiyaya maneələrin aradan qaldırılması;
– İnsan kapitalına və fiziki infrastruktura investisiyalar;
– Əlaqədar müəssisələrin coğrafi konsentrasiyasının təşviqi.

Sənaye siyasətinə rəqib olan klaster siyasəti müəyyən sektorları və firmaları dəstəkləyir.

İdarəedilmə praktikasından asılı olaraq klasterlərin aşağıdakı növləri fərqləndirilir:

*Qrafik 1.*

**Klasterlərin növlər üzrə bölgüsü**



**AUDİT 2024, 3 (45), səh. 92-102.**
**AUDIT 2024, 3 (45), pp. 92-102.**
**АУДИТ 2024, 3 (45), стр. 92-102.**

Hazırda iqtisadiyyatda klasterləşmə prosesi iqtisadi sistemin mürəkkəb inkişafı üçün təsirli bir alət kimi xidmət edir, rəqabət modelinin seçilməsini şərtləndirir və regionun mövcud potensialından tam istifadə etməyə imkan verir. Qruplaşma prosesi bir-biri ilə rəqabət aparan sənaye sahələrinin dinamik böyüməsini təşviq edir. Beynəlxalq təcrübə artıq göstərdi ki, yaxşı işləyən klaster bazar iqtisadiyyatının aydın göstəricisidir. Səmərəli bir iqtisadiyyat üçün klasterlər lazımlıdır. Bəlkə də bu, 300 il əvvəl Hindistanda əl işləri və xidmət qruplarının ortaya çıxmasının səbəbini izah edir. Qruplaşmanın tarix boyu davam etməsi və indi müvafiq olaraq müəyyən edilməsi onun sosial-iqtisadi dəyərini göstərir. Beləliklə, təkamül prosesində, mürəkkəb əşyalar, şirkətlər və texnoloji proseslər bir ərazidə eyni yerdə cəmləşmişdir (9).

Əgər klaster və klaster siyasəti bir vaxtlar sürətli iqtisadi inkişaf üçün yeni bir idarəetmə yanaşması hesab olunurdusa, son 15 ildə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə M.Porter modelinə əsaslanan ənənəvi klaster siyasəti və konsepsiyası güclü iqtisadi inkişaf üçün kifayət deyil. Beləliklə, dünyanın sürətli dəyişikliklərinə uyğunlaşa bilən qloballaşan klaster idarəetmə modeli (nəzəri və metodoloji yanaşma) yaradılmalıdır. Klaster ilk növbədə bölgənin və sahənin dinamik inkişafı üçün universal bir alət kimi xidmət etməlidir.

**Klasterləşmənin KOS-lara gətirdiyi üstünlüklər**

KOS-lar bu günki sərt rəqabət dünyasında inkişaf etmək, rəqabət qabiliyyətini artırmaq və beynəlxalq bazarlara çıxmaq üçün yenilikçi strategiyalar axtarırlar. Bu mühitdə inkişaf etmək üçün müəssisələr unikal və üstün məhsullar təqdim etməli, keyfiyyət və texnologiya sahəsində liderlik etməli, tez-tez uzaq və genişlənən müştərilərə rəqabət qabiliyyətli qiymətlərlə mallar yaratmalı və satmalıdırlar. Azərbaycan iqtisadiyyatının inkişafında və beynəlxalq səviyyədə rəqabətə davamlılığının artırılmasında əhəmiyyətli rolu olan KOS-lar, bununla belə, dəyişən qlobal mənzərə nəzərə alınmaqla bir sıra çətinliklərlə üzləşirlər. Bu çətinliklər, ilk növbədə, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə qarşılaşdıqları daha güclü rəqabətin getdiyi mühitə uyğunlaşma qabiliyyəti ilə əlaqədardır. Bu çətinliklər satınalma, istehsal, marketinq, ixrac, tədqiqat və texnologiya sahələrində müşahidə olunur. Bu məsələləri təkbaşına həll etməkdə qarşılaşdıqları çətinliklər səbəbindən KOS-lar arasında əməkdaşlıq vacib ünsürə çevrilmişdir (1, s.313-314).

Planlaşdırma və həyata keçirilmə mərkəzləşdirilmiş idarəetmə konsepsiyasından idarəetmə fəaliyyətinə çevrilir, çünki idarəetmə yerli hökumətləri, dövlət qurumlarını, özəl təşkilatları, universitetləri və digər tədqiqat institutlarını, QHT-ləri, maliyyə institutlarını və digər maraqlı tərəfləri, xüsusən də iqtisadiyyatın oxşar sahələrində fəaliyyət göstərən müəssisələri birləşdirən bir konsepsiyadır. KOS-lar oxşar çətinliklərlə üzləşən müəssisələrlə ortaq bir məqsəd və düşüncə tərzini inkişaf etdirərək, qruplaşma daxilində çətinliklərinə cavab tapmaq və quruluşun faydalarını əldə etmək üçün əməkdaşlıq edə bilərlər.

Hər hansı klasterin bir hissəsi olmaq, KOS-lar üçün bir neçə fayda verir. Burada KOS-lar üçün qruplaşmanın faydalarının ümumi şərtləri aşağıdakı meyarlarla qiymətləndirilir.

AUDİT 2024, 3 (45), səh. 92-102.
AUDIT 2024, 3 (45), pp. 92-102.
АУДИТ 2024, 3 (45), стр. 92-102.

*Qrafik 2.*

**KOS klasterlərin inkişaf meyarları**




KOS-ların klasterlər üzrə qruplaşdırılması həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin qloballaşmadan rəqabət qabiliyyəti baxımından faydalanması qəbul edilir. Son illərin araşdırmalarına və nəticələrinə görə, qruplaşdırmanın çox müxtəlif qurulmuş və inkişaf etməkdə olan ölkələrdə və sektorlarda istifadə olunmasına başlanılmışdır. Bu gün kiçik və orta sahibkarlıqların və ölkələrin ümumi rəqabət qabiliyyətini artıran çoxsaylı klasterlər mövcuddur. Məsələn, Avropadakı sənaye bölgələri, xüsusi bir bazarda müştərilərə yaxşı dizayn edilmiş, yenilikçi və dəyişikliklərə tez uyğunlaşan mal və xidmətlər təqdim edərək rəqabət üstünlüyünü əldə etdilər. İtaliyada tekstil və hazır geyim klasteri yeni texnologiyalardan daha intensiv istifadə etməklə bazarda mövqeyini gücləndirdi. Bu texnologiyalar, müəssisələrin istehsal güclərini bazar tələblərinə uyğunlaşdırmaq üçün davamlı olaraq təkmilləşdirilir. Eyni dəyər zəncirində müştəri yönümlü firmalar arasında inkişaf edən klasterlər, onlara rəqabət üstünlüyü verən sənaye zonalarının üstün bir xüsusiyyətidir.

Klasterlərin şəbəkə imkanları sayəsində müəssisələr daha asanlıqla tələb etdikləri texnologiya, ixtisaslaşmış resurslar, xammal və AR-GE laboratoriyalarını əldə edə bilərlər. Nəticədə, məhsuldarlıq klasterdə inteqrasiya edilmiş KOS-lar tərəfindən artırılır. Bundan əlavə, bir-birini tamamlayan keyfiyyətlərinə görə, qrupdakı KOS-lar istehsalı tez bir zamanda edir. Bu keyfiyyətlər sifariş və çatdırılma prosesini sürətləndirir, dəstək əməliyyatlarının yaxınlıqda tamamlanmasına imkan verir, nəqliyyat və saxlama kimi vəzifələrin əlverişli icrasını asanlaşdırır.

AUDİT 2024, 3 (45), səh. 92-102.
AUDIT 2024, 3 (45), pp. 92-102.
АУДИТ 2024, 3 (45), стр. 92-102.

Qeyd olunan üstünlüklərin hamısı KOS-ların məhsuldarlığını artırır və bu investisiyaların xərcləri azalır.

Bizneslər, fiziki yaxınlıq və tez-tez etimada əsaslanan inkişaf etmiş əlaqələr vasitəsilə əməliyyat xərclərini azaldacaq qruplaşdırma yolu ilə həcm və əhatə dairəsi iqtisadiyyatları əldə edə bilərlər. Sənaye qrupları, ixtisaslı işçi qüvvəsi və biznes xidmətləri, özəl sənaye ehtiyaclarına yönəlmiş dövlət sektoru xərcləri və qrup üzvü olan şirkətlərin ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuş sürətləndirilmiş maliyyə bazarları xərclərin azaldılmasına kömək edə bilər. Bundan əlavə, müştərilərin tələbatından asılı olaraq klasterlər, mal və xidmətlərinin faydalarını və keyfiyyətini aşağı qiymətləndirmədən üzv şirkətlərinin xərc strukturunu müəyyənləşdirirlər. Bu zaman həm də rəqabət üstünlüklərini daha ucuz üstünlüklərə çevirirlər. Şirkətlər xərc üstünlükləri və qruplaşmanın rəqabət üstünlükləri səbəbindən sənaye liderləri olurlar (2).

KOS-lar müəyyən dəyər zəncirinin bir hissəsidir və bu zəncir tərəfindən yaradılan əlavə dəyərin bir hissəsini alırlar, çünki klasterlər tez-tez müəyyən sektorlara yönəldilmişdirlər. Nəticədə, klasterdəki KOS-lar milli səviyyədə fəaliyyət göstərməyə və təbii mühitlərinin yerli səviyyəsindən kənara çıxmağa imkan verən bir dərəcədə bacarıq əldə edə bilirlər. Təhlil edilən uğurlu klasterlərin demək olar ki, hamısı öz rəqabət sahələrində cəmləşmiş və mütəxəssis olmuşdur.

İxtisaslaşmanın əldə edilməsi ilə klasterləşmə müəssisələrə miqyas iqtisadiyyatların-dan faydalanmağa imkan verəcəkdir. Klaster içərisindəki müəssisələr ixtisaslaşmış təchizatçı-ların olması, ortaq marketinq səyləri, toplu satınalma müqavilələri, ixtisaslaşmış risk kapita-lına daha çox çıxış və digər ixtisaslaşmış dəstək xidmətləri sayəsində öz əməliyyatlarına daha çox diqqət yetirə və daha çox istehsal edə bilirlər. KOS-lar tamamlayıcı bacarıqları və resursları birləşdirə və təkcə qruplaşdırma yolu ilə əldə edə bilmədikləri həcmə çata biləcək-lər.

Bugünkü çox rəqabətli bazarda, müqayisə edilə bilən mal və xidmətlər təklif edən bir neçə əsas rəqibdən fərqlənmək vacibdir. Çünki müəssisələr yenilik etmək üçün təzyiq altındadırlar. Bu çərçivədə, innovasiya klasterlər vasitəsilə dəstəklənir, sürətləndirilir və bazar qabiliyyətinə çatdırılır. İnnovasiya prosesinin mühüm mərhələləri arasında spontan hərəkət-lərin stimullaşdırılması və klasterin maraqlı tərəfləri arasında ixtisaslaşmış bilik və təcrübə paylaşımı daxildir. Bundan əlavə, aktiv klasterlərdəki KOS-larda işçilərin əməkdaşlığı, yaxınlaşması və məlumat paylaşımı klaster xaricindəki müəssisələrdən daha yüksək səviyyədədir. Yaradıcılıq üçün ən vacib tələblərdən biri, bu yaxınlaşma və informasiya mübadiləsi ilə inkişaf etdirilən fikirlərin yaranmasıdır.

Porterə görə, uğurlu bir klaster inkişafının iki əhəmiyyətli faydası mövcud işlərin sürətli genişlənməsi və yenilərinin əlavə edilməsidir. Klasterləşmə və şirkətlər arasındakı əlaqəni araşdıran çoxsaylı əlavə akademiklər Porter nəzəriyyəsi ilə razılaşdılar. Bu vəziyyətdə klaster formalaşmaları klaster planının sərhədlərini genişləndirir və xüsusi xüsusiyyətlərə malik bazarları işğal etmək üçün yeni şirkət sektorları yaradır. Daha uzaq yerlərdə yeni şəhərlər qurmaq əvəzinə, artıq mövcud olan qruplar daxilində yeni müəssisələrin yaradılacağı gözlənilir. Klaster şəraitdən asılı olaraq yeni, ixtisaslaşmış təchizatçıların sayında artım görə bilər. Nəticədə, klasterlər yeni şirkətlərin fəaliyyətə başlamasına kömək edə bilər və klasterin içərisindəki KOS-

**AUDİT 2024, 3 (45), səh. 92-102.**
**AUDIT 2024, 3 (45), pp. 92-102.**
**АУДИТ 2024, 3 (45), стр. 92-102.**

lar məhsul və xidmətlər bazarında boşluqları tez bir zamanda aşkar edə və onları doldurmaq üçün planlar hazırlaya bilərlər (3).

Qiymət zənciri fenomeninin əvəzi sənaye qrupları ola bilər, çünki ilkin bazar özü bir qrupdur. İstehsal təcrübəsi sayəsində dəyər zəncirindəki KOS-lar tamamlayıcı müəssisələrlə əməkdaşlıq edərək və məhsulun çatdırılma müddətini sürətləndirərək ehtiyat xərclərini azalda bilərlər. Lazım olduqda, klasteri yaxınlıqdakı bir alt sahədəki müəssisələri əlavə etməklə genişləndirmək də mümkündür.

İctimaiyyətin təşviqləri və yardımı sayəsində (bütün fiziki infrastrukturlar, tədqiqat və keyfiyyət mərkəzləri, sınaq laboratoriyaları, təlim proqramları, agentliklər və s.) klasterlərdəki KOS-lar bunlara sürətli və pulsuz girişdən faydalanırlar.

Kollektiv maliyyələşdirmə prosesini sadələşdirərək kiçik və orta sahibkarlara da kömək edir. Bizneslər, tədqiqat institutları, qeyri-hökumət təşkilatları, sığorta təminatçıları və banklar da daxil olmaqla maliyyə qurumları hamısı qrupun tərkibinə daxildir. Nəticədə, bir KOS qrupa qoşulduqda, kreditlərə və nağd pula banklar vasitəsilə qoşulmaqdan daha asan çıxış əldə edir ki, bu da KOS-un maliyyə problemlərinin həllinə kömək edir.

## Azərbaycanda KOS-larda klasterləşmənin mövcud vəziyyətinin təhlili

Sənayenin rəqabət qabiliyyətini, ixracın keyfiyyətini artırmaq, xarici investisiya cəlb etmək, yeni bazarlar açmaq, işsizlik səviyyəsini azaltmaq, ixrac potensialını artırmaq, təhsil səviyyəsini artırmaq üçün klasterlər təşkil edən müəssisələrə yeni texnologiyaların inkişafında kömək etmək klasterləşmənin əsas məqsədlərindən biridir.

Davamlı inkişaf və texnologiya KOS-lara təsir göstərir. Son olaraq ölkələrin klaster tətbiqi təcrübələrini araşdırdıqdan sonra, innovativ klasterlərin yaradılmasının ölkəmizin iqtisadiyyatını əhəmiyyətli dərəcədə artıra biləcəyi və davamlı iqtisadi böyüməni təmin edə biləcəyi qənaətinə gəlmək olar.

Azərbaycanda kiçik və orta sahibkarlığın klasterləşməsi yeni bir mərhələ olub, inkişaf etməkdə olan bir prosesdir. Son illər dövlət tərəfindən dəstəklənən və sürətlə inkişaf edən klasterlərin sayı artmaqdadır. Azərbaycanın iqtisadiyyatında klasterləşməni təşviq etmək üçün çeşidli proqramlar və tədbirlər həyata keçirilir. Bu proqramlar vasitəsilə sahibkarlar arasında əməkdaşlıq və iş birliyinə əsaslanan klasterlərin yaradılması, maliyyə dəstəyi təmin edilməsi və yeni iş sahələrinə inestisiya qoyulmasına təşviq edilir. Hazırda, Azərbaycanın sənaye, texnologiya, və digər sahələrində fəaliyyət göstərən bir çox klaster mövcuddur. Bu klasterlər, dövlət tərəfindən dəstəklənən layihələrlə, iqtisadi və sənaye bölgələrinin yaradılması, tədqiqat və inkişaf mərkəzlərinin fəaliyyəti və digər tədbirlərlə inkişaf etməkdədir. Eyni zamanda, yaxın vaxtlarda işğaldan azad olunmuş ərazilərdə turizm sahəsində klasterlərin yaradılması planlaşdırılır.

Ümumilikdə, Azərbaycanın kiçik və orta sahibkarlığın klasterləşməsi mövcud vəziyyətdə inkişaf etməkdədir və dövlət tərəfindən dəstəklənən proqramlar və tədbirlərlə bu prosesin daha da güclənməsi gözlənilir. Bu sayədə, sahibkarlar arasında əməkdaşlıq və iş birliyi artırılacaq və iqtisadiyyatın inkişafı daha sürətlə həyata keçiriləcək.

Azərbaycanda klasterləşmənin SWOT təhlilini aşağıdakı formada verə bilərik:

AUDİT 2024, 3 (45), səh. 92-102.
AUDIT 2024, 3 (45), pp. 92-102.
АУДИТ 2024, 3 (45), стр. 92-102.

*Cədvəl 1.*

**Azərbaycanda klasterləşmənin SWOT təhlili**

| GÜCLÜ TƏRƏFLƏR | ZƏİF TƏRƏFLƏR |
|---|---|
| ✓KOS-larda mövcud infrastruktur və siyasət;<br>✓Sənaye yönümlü iqtisadi sistem və innovasiyaya meyillilik;<br>✓Dövlətin regionların sosial-iqtisadi inkişafı ilə bağlı mütəmadi olaraq yeritdiyi siyasət. | ✓İnfrastrukturda bir sıra boşluqların mövcud olması;<br>✓Klasterləşmənin bir anlayış olaraq cəmiyyət tərəfindən qəbul olunmasında yaranan çətinlik;<br>✓Peşəkar kadr və mütəxəssis çatışmazlığı. |
| **İMKANLAR** | **TƏHDİDLƏR** |
| ✓Xarici ölkələrlə əməkdaşlıq və beynəlxalq təcrübədən yararlanmaq imkanları;<br>✓Klasterləşmənin davamlı olaraq dəyişən iqtisadi sistemə uyğunlşma elastikliyinin olması;<br>✓Tədqiqat aparılma imkanının mövcudluğu. | ✓Sahələr üzrə klasterləşmədə məlumat çatışmazlığı;<br>✓Qeyri-təkmil bazar və rəqabət şəraiti;<br>✓Bir sıra qurumların potensiallarının qeyri müəyyən olması;<br>✓Böhran gözləntisi. |

Yuxarıda apardığımız SWOT təhlilimizə əsasən qeyd edə bilərik ki, sənaye yönümlü iqtisadi sistemin inkişaf etdirilməsi və innovativ texnologiyaların cəlb olunması ixrac potensialının artırılması və idxaldan asılılığımızın azaldılmasına təkan verəcəkdir. Eyni zamanda, dövlətin regionların sosial-iqtisadi inkişafına yönəltdiyi siyasəti nəticəsində yerli istehsalın inkişafı və iqtisadi təhlükəsizliyimizin göstəricilər sistemi üzrə təmin olunması istiqamətində intensiv işlər aparılır.

Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının "KOB klaster şirkəti"-nin meyarları"nın təsdiq edilməsi barədə 08.05.2019 tarixli qərarına əsasən KOB klaster şirkətlərinin təşkil olunmasının meyarları müəyyənləşdirilmişdir. Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 dekabr tarixli 1905 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin klasterləri haqqında nümunəvi əsasnamə"də KOB klasterləri barədə əsas anlayışlar, KOB klasteri yaradılmasının məqsədləri, KOB klasterinin yaradılması, KOB klaster şirkətinə KOB klasterinin iştirakçılarına şəhadətnamələrin verilməsi qüvvəsinin dayandırılması və ləğv edilməsi, fəaliyyətdə olan KOB klasterinə yeni iştirakçıların qəbul edilməsi, KOB klasterinin yaradılması və fəaliyyəti ilə bağlı işlərin maliyyələşdirilməsi ilə bağlı məsələlər öz əksini tapmışdır (8). Yuxarıda göstərilən Model Nizamnamə dövlət dəstəyinin əsas məqsədlərini ölkə üzrə KOB qruplarından mal və xidmətlərin rəqabətqabiliyyətli istehsalının təşviqi, bu sektorda sahibkarlığın və KOB-lərin inkişafının təşviqi və iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun uzunmüddətli həyat qabiliyyətinin təmin edilməsi kimi müəyyən edir. Paylaşılan coğrafi yerləşməsinə, işçi qüvvəsinin birləşdirilməsinə, vahid bazar və xidmətlərə çıxışına və qarşılıqlı iqtisadi əlaqələrinin inkişafına əsasən, əlaqəli, bir-birini tamamlayan və əməkdaşlıq edən KOB klasteri şirkətləri və iştirakçılarının bir qrupu KOB klasterini təşkil edir. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən, KOB klasteri və onun iştirakçıları müəyyən vergi güzəştlərinə malikdirlər. Buna görə də, KOB klasteri şirkəti, müvafiq qeydiyyatdan keçmə tarixindən etibarən 7 il müddətinə, KOB klasteri fəaliyyətində istifadə olunan torpaq üçün mənfəət, torpaq və əmlak vergisi və istehsal və ya emal məqsədləri üçün maşın, texnoloji avadanlıq və qurğuların idxalı üçün ƏDV-dən azad edilir, əgər təsdiqləyici sənəd təqdim edilirsə (11). KOB klasteri sertifikatını almaq üçün kommersiya hüquqi şəxsləri Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) müraciət etməlidirlər.

2023-cü ildə KOBIA-ya "KOB Klaster Sertifikatı" verilməsi üçün 6 müraciət təqdim edildi. Bu müraciətlər kənd təsərrüfatı, sənaye və qida sənayesi ilə əlaqədardır.

**AUDİT 2024, 3 (45), səh. 92-102.**
**AUDIT 2024, 3 (45), pp. 92-102.**
**АУДИТ 2024, 3 (45), стр. 92-102.**

## YEKUN

Klasterləşmə ölkələrin, bölgələrin və hətta şəhərlərin rəqabət qabiliyyətini yüksəldən bir konsepsiyadır, bu səbəbdən də dünyada və ölkəmizdə bu qədər əhəmiyyətli bir rola malikdir. Klasterləşmə yolu ilə daxil olan müəssisələr əmək, xammal, istehsal, bazarlara giriş və nəqliyyat da daxil olmaqla müxtəlif sahələrdə üstünlüklər əldə edirlər. Bu, xərcləri azaldır və dünya miqyasında rəqabət qabiliyyətini artırır. Çünki rəqabət aparan sahələr, bugünkü qlobal rəqabət mühitində tək rəqabət aparan rəqabət aparan müəssisələri getdikcə əvəz edir. Klaster olmayan müəssisələr bu mühitdə davamlı rəqabət üstünlüyünə sahib deyillər.

Klasterləşmə vasitəsilə, kiçik və orta sahibkarlığın böyük əksəriyyətini təşkil etdiyi ölkəmizdəki kiçik və orta sahibkarlıq müəssisələrinin qarşılaşdığı problemlərə cavab tapmaq mümkündür. KOS-lar, xüsusilə tədarük, istehsal, marketinq, ixrac, tədqiqat, texnoloji inkişaf sahələrində, xüsusən də öz kapitalı sahəsində, tez düşünmək və hərəkət etmək, dəyişən bazar şəraitinə tez uyğunlaşmaq və istehlakçıların istək və ehtiyaclarına həssas olmaq kimi bir çox üstünlüklərinə baxmayaraq, bəzi çətinliklərlə qarşılaşdıqları üçün qlobal bir şəraitdə bu məsələləri özləri həll etmək KOS-lar üçün olduqca çətindir. KOS-lar, qruplaşmanın üstünlüklərindən istifadə edərək bu problemləri azalda bilər.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Abbasov A.B, Abbasov S.A. Kiçik və orta sahibkarlığın idarə edilməsi. Bakı Biznes Universiteti, Bakı, 2021, 313-318 s.
2. Alsaç F. Bölgesel Gelişme aracı olarak kümelenme yaklaşımı ve Türkiye için kümelenme bölgeler bazında bir uygulama. Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü nəşriyyatı, 2012, 18(2), 281-298 s.
3. Erer B., Diken A. Atlas International Refereed Journal On Social Sciences. Published Date:31.10.2018. 34-43 pp.
4. Əliyev T.N. Klasterlər: beynəlxalq təcrübə və innovativ inkişaf. Elm və bilik. Bakı, 2019, 226-230 s.
5. İbrahimov İ. H. Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələləri. Bakı, 2010, 67 s.
6. www.academia.edu/16685371/Principles_for_promoting_clusters_and_networks_of_SMEs
7. www.researchgate.net/publication/314646025_Proactive_international_strategies_of_cluster_SMEs
8. www.smb.gov.az/az/nav/kob-klaster
9. www.researchgate.net/publication/280522571_About_clustering
10. www.az.vogueindustry.com/17358529-cluster-approach-types-basic-definitions-goals-and-objectives
11. www.taxes.gov.az/files/2/jurnal/AVJ2018R3N136.pdf

**AUDİT 2024, 3 (45), səh. 92-102.**
**AUDIT 2024, 3 (45), pp. 92-102.**
**АУДИТ 2024, 3 (45), стр. 92-102.**

*Gunay Gnyaz Hashimova,*
*Ph.D. Student,*
*Baku Business University,*
*Email: gunay.hesimova07@gmail.com;*
*Aydan Elnur Musayeva,*
*Azerbaijan Diplomatic Academy (ADA University),*
*Email:aydanmusayeva2022@gmail.com*
*© G.G. Hashimova, A.E.Musayeva, 2024*

# IMPACT OF CLUSTERING ON THE DEVELOPMENT OF SMALL AND MEDIUM ENTREPRENEURSHIP

## A B S T R A C T

**The purpose of the research -** is to analyze the current state of clustering in small and medium-sized enterprises and give recommendations based on the information obtained.

**The methodology of the research -** SWOT analysis, secondary data analysis, synthesis and other methods were widely used during the study.

**The practical importance of the research -** the results of this study can be used in the development of a number of strategies, plans and forecasts on the clustering of SMEs.

**The results of the research -** the role of clustering in increasing the development of exports, investment attractiveness, production, research, technological and other directions in the SMEs and state support for this area were noted.

**The originality and scientific novelty of the research -** the current state of the clustering of SMEs was analyzed and corresponding recommendations were given.

**Keywords:** small and medium-sized enterprises, entrepreneurship, competition, clustering, state support, cluster company.

**AUDİT 2024, 3 (45), səh. 92-102.**
**AUDIT 2024, 3 (45), pp. 92-102.**
**АУДИТ 2024, 3 (45), стр. 92-102.**

*Гашимова Гюнай Гнязь кызы,*
*докторант,*
*Бакинский Университет Бизнеса,*
*Email: gunay.hesimova07@gmail.com;*
*Мусаева Айдан Эльнур кызы,*
*Азербайджанская Дипломатическая*
*Академия (ADA University),*
*Email:aydanmusayeva2022@gmail.com*
*© Гашимова Г.Г., Мусаева А.Э., 2024*

## ВЛИЯНИЕ КЛАСТЕРИЗАЦИИ НА РАЗВИТИЕ МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА

### Р Е З Ю М Е

**Цель исследования** - проанализировать текущее состояние кластеризации в малых и средних предприятиях и сформулировать рекомендации на основе полученной информации.

**Методология исследования** - в ходе исследования широко использовались SWOT - анализ, анализ вторичных данных, синтез и другие методы.

**Практическая значимость исследования** - результаты этого исследования могут быть использованы при разработке ряда стратегий, планов и прогнозов по группировке МСП.

**Результаты исследования** – представлена роль кластеризации в повышении развития экспорта, инвестиционной привлекательности, производства, исследований, технологических и других направлений в МСП, а также рассмотрена государственная поддержка в данной области.

**Оригинальность и научная новизна исследования** - было проанализировано текущее состояние кластеризации МСП и сделаны соответствующие рекомендации.

**Ключевые слова:** малые и средние предприятия, предпринимательство, конкуренция, кластеризация, государственная поддержка, кластерная компания.

*Məqalə redaksiyaya daxil olmuşdur: 27.06.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 30.07.2024*
*Çapa qəbul olunmuşdur: 06.08.2024*

*Дата поступления статьи в редакцию: 27.06.2024*
*Отправлено на повторную обработку: 30.07.2024*
*Принято к печати: 06.08.2024*

*The date of the admission of the article to the editorial office: 27.06.2024*
*Send for reprocessing: 30.07.2024*
*Accepted for publication: 06.08.2024*